# Azərbaycan–Özbəkistan ədəbi-mədəni əlaqələri (XX əsrin 60-80-ci illəri)



Nisbət MEHDİYEVA,
tarix elmləri doktoru, professor.

Cəmiyyətin inkişafında mədəniyyətin rolunun artması dövrümüzün ən mühüm qanunauyğunluqlarından biridir. Mədəniyyətin formalaşması və inkişafı, xalqların mədəni irsi və irsə varislik, onların bu sahədə tərəqqisi mədəni əlaqələr vasitəsilə də təzahür edir. Mədəni əlaqələr sahəsindəki qarşılıqlı təsir, qarşılıqlı zənginləşmə, bununla əlaqədar olaraq mədəniyyətlərin inkişafı əldə edilən uğurlardandır. Mədəniyyətin əsas sahələrindən biri olan ədəbiyyat və incəsənətin xalqa təsir qüvvəsi həmişə artmış və mədəni nailiyyətlərin mübadiləsi əsasında inkişaf etmişdir. Mədəni əlaqələrin təsiri ilə milli ədəbiyyat və incəsənətin inkişafı xalqın mənəvi aləminin tərəqqisinə də kömək edir. Azərbaycan xalqı öz mədəniyyətini başqa ölkələrin xalqları, ilk növbədə türk xalqları ilə əməkdaşlıq, ədəbiyyat və incəsənətin qarşılıqlı surətdə zənginləşdirilməsi və milli nailiyyətlərin mübadiləsi əsasında inkişaf etdirir. Müasir dövrdə türk xalqları arasında mövcud olan mədəni əlaqələr bu xalqların tarixi keçmişinə əsaslanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdi ki, Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqarla ... qarşılıqlı anlaşma, mehriban dostluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

Azərbaycan yaradıcılıq ittifaqları mədəni əlaqələrin yaranması və inkişafında yaxından iştirak edir. Bu əlaqələrin forma və vasitələri zəngin, coğrafi dairəsi geniş, əhəmiyyəti isə böyükdür. Yaradıcılıq ittifaqlarının ədəbi-mədəni əlaqələr dairəsinə—tərcümə problemləri, müzakirələr, söhbətlər, yaradıcılıq görüşləri, festivallar, görkəmli şəxsiyyətlərin yubileyləri, ədəbiyyat və incəsənət günləri, poeziya günləri, elmi əlaqələr və s. daxildir. Bu baxımdan Azərbaycan yaradıcılıq ittifaqlarının Özbəkistanla mədəni əlaqələr sahəsində XX əsrin 60-80-ci illərdə keçilmiş yolunun tədqiqi maraq doğurur.

Azərbaycan Yazıçılar İttifaqının mədəni əlaqələr sahəsində fəaliyyətində bədii tərcümə və ədəbiyyatın təbliği əsas yer tutur. Buna görə də ittifaqın nəzdində xüsusi olaraq tərcümə bölməsi fəaliyyət göstərirdi. Azərbaycan ədəbiyyatının bir çox əsərləri özbək dilinə çevrilmişdir. C.Cabbarlının "Od gəlini", " Sevil", "1905-ci ildə" pyesləri özbək dilində çap olunmuşdur. Azərbaycan dilinə və ədəbiyyatına xüsusi məhəbbət bəsləyən, onları öyrənən və orijinaldan tərcümə edən müəlliflər respublika Yazıçılar İttifaqı ilə sıx əlaqələr saxlayırdılar. Ə.Cabbarov (Özbəkistan) Azərbaycan dilini bilir və orijinaldan tərcümə edirdi. Azərbaycan Yazıçılar İttifaqı keçmiş SSRİ xalqları ədəbiyyatından edilən tərcümələri öz orqanlarında, xüsusən "Azərbaycan" jurnalında nəşr edirdi. M.Şeyxzadənin "Mirzə Uluqbəy" faciəsi dediklərimizə sübutdur.

60-cı illərin əvvəllərində Azərbaycan nəşriyyatlarının təcrübəsini öyrənmək və təcrübə mübadiləsi məqsədi ilə Özbəkistandan nümayəndələr dəvət olunmuşdur. Öz növbəsində Azərbaycan nəşriyyatlarının əməkdaşları Özbəkistana göndərilmişdir. 1970-ci ildə Azərbaycan Yazıçılar İttifaqı görkəmli özbək şairi M.Şeyxzadənin 70 illiyini qeyd etmək üçün onun əsərlərini iki cilddə nəşr etmək haqqında qərar çıxarmışdır. Bununla əlaqədar olaraq M.Şeyxzadənin kitabları Azərbaycan dilində nəşr olunmuşdu. Bu kitablardakı əsərləri şairlərdən M.Dilbazi, B.Azəroğlu, Ə.Ziyatay, N.Xəzri, Ə.Kürçaylı, M.İbrahim, X.Rza, İ.Səfərli, N.Həsənzadə, T.Bayram və başqaları tərcümə etmişlər.

Bu dövrdə özbək-Azərbaycan ədəbi-mədəni əlaqələrini orijinaldan öyrənəcək xüsusi tədqiqatçılar yetişdirilmişdir. Belə ki, Azərbaycandan Daşkəndə göndərilmiş Q.Qasımov və A.Bağırov Daşkənd Dövlət Universitetində təhsilini başa vurmuşlar. Onlar akademik V.Zahidovun və professor H.Süleymanovun rəhbərliyi altında mütəxəssis kimi yetişdirilmişdir. Eləcə də Özbəkistandan Bakıya—Azərbaycan Dövlət Universitetinə təhsil almaq üçün iki özbək tələbə—Ə.Cabbarov və T.Mahmudəliyev göndərilmişdilər. Onlar Azərbaycan şeirini orijinaldan tərcümə edirdilər. Özbək şairi E.Vahidovun "Damlalar" şeirlər məcmuəsi 1980-ci ildə A.Vəfalının tərcüməsində Bakıda "Gənclik" nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Respublikamızın Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi Yazıçılar İttifaqının rəhbərliyi altında fəaliyyət göstərirdi.

1979-1980-ci illərin ədəbi-mədəni panoramında Azərbaycanda keçirilən Özbəkistan ədəbiyyatı və incəsənəti dekadalarının, eləcə də Özbəkistandakı Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün bu xalqların mədəniyyətinə bəxş etdiyi ədəbi töhfə xüsusilə qabarıq görünür. Azərbaycan Yazıçılar İttifaqının 1979-cu il aprelin 3-də keçirilmiş iclasında may ayında respublikamızda olacaq Özbəkistan ədəbiyyatı və incəsənəti günləri ilə əlaqədar olaraq işgüzar komissiya yaratmaq haqqında qərar qəbul olunmuşdur. Azərbaycanda keçirilən ədəbiyyat və incəsənət günlərində elm, ədəbiyyat və incəsənət xadimləri iştirak edirdilər. O cümlədən şair və yazıçılardan K.Yaşen, H.Qulam, Zülfiyyə, T.Tülə, Şükrullo, A.Muxtar, A.Aripov, N.Nərzullayev, İ.Ametov, Mirmöhsün, N.Səfərov, ədəbiyyatşünas L.Kəyumov və başqalarını göstərmək olar. Azərbaycanda Özbəkistan günləri müvəffəqiyyətlə keçmişdi. Xalq şairi Zülfiyyə Səməd Vurğuna həsr etdiyi şeirini "Səməd Vurğunun evində" adlandırmışdı. Özbəkistan ədəbiyyatı və incəsənəti günlərində Özbəkistandan gələn nümayəndə heyəti Azərbaycanın şəhər və rayonlarında 190 görüş keçirmiş, 100-dən çox, o cümlədən 41 hamilik konserti vermişdilər. Özbəkistan ədəbiyyatı və incəsənəti günlərindəki tədbirlərdə 530 min adam iştirak etmişdir. Efirdə Özbəkistan və Azərbaycan SSR Dövlət Televiziya və Radio komitələrinin hazırladıqları 230 televiziya və radio verilişləri olmuşdur.

Azərbaycanda keçirilən Özbəkistan SSR ədəbiyyatı və incəsənəti günlərinin davamı olaraq 1980-ci ilin iyununda Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri oldu. On gün ərzində Azərbaycan şairləri bir çox görüşlərdə iştirak etmişdilər. Fərqanədə "Azərbaycan küçəsi" iki xalqın dostluq nümunəsinə çevrilmişdi. Azərbaycanın xalq şairəsi M.Dilbazi Özbəkistanın xalq şairəsi, Lənkəranın fəxri vətəndaşı Zülfiyyəyə onun mis üzərində döyülmüş portretini hədiyyə vermişdi. Respublika yazıçılarının VI qurultayında L.P.Kayumov (Özbəkistan) iştirak etmişdi.

Respublika Bəstəkarlar İttifaqı 1960-cı ilin aprelində keçirilən plenumunda iştirak etmək üçün Daşkənddən nümayəndələr dəvət etmişdi. 1960-cı ildə Daşkənddə E.Nəzirova və A.Rzayevin yaradıcılıq görüşü maraqla qarşılanmışdır. 1964-cü ildə Daşkənddə " Bakı günləri"nin keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Bəstəkarlar İttifaqı ora 11 adda respublikanın görkəmli bəstəkarlarının, o cümlədən Q.Qarayevin, F.Əmirovun, S.Rüstəmovun, C.Cahangirovun və b. əsərlərini göndərmişdir. 1965-ci ildə Bakıda Özbəkistan estrada orkestrinin konserti olmuşdur. 1986-cı ildə Özbəkistanın " Yalla" vokal-instrumental ansamblı da şəhərimizdə bir sıra konsertlər vermişdir. 1963-cü ildə Q.Qarayevin "İldırımlı yollarla" baleti Daşkənddə tamaşaçılara çatdırılmışdır. S.Ələsgərovun "Ulduz" operettası Mərkəzi Asiya respublikalarında göstərilmişdir. Azərbaycan bəstəkarları və musiqişünasları Səmərqənddə muğam sənətinə həsr olunmuş beynəlxalq musiqi simpoziumunda (1978) iştirak etmişdilər.

60-cı illərdə Azərbaycan rəssamlarının sərgiləri Daşkənddə nümayiş etdirilmişdir. Daşkənddə Azərbaycan rəssamlarının, o cümlədən T.Salahovun, M.Abdullayevin, T.Nərimanbəyovun və b. 42 əsərindən ibarət sərgisi açılmışdır. Özbəkistanın əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru R.Taktaş Daşkənddən göndərdiyi məktubunda yazırdı: "Moskvada Azərbaycan təsviri sənət ustalarının sərgisinə baxmışdım. S.Bəhlulzadənin mənzərələri, T.Salahovun portretləri, həmçinin T.Sadıqzadənin kənd əməkçilərinə həsr olunmuş tablosu orijinallığına, dərinliyinə görə məni valeh etmişdi". 1978-ci ildə Bakıda, Kirovabadda və Sumqayıtda "Sovet Özbəkistanının incəsənəti" adlı sərgi nümayiş etdirilmiş və bu sərgiyə 40 min tamaşaçı baxmışdır.

1970-ci ildə Azərbaycan və Özbəkistan teatr cəmiyyətləri arasında gedən qarşılıqlı yazışmalarda hər iki tərəf sıx əlaqə yaratmaq, təşkilati təcrübə mübadiləsi keçirmək haqqında razılığa gəlmişlər. 1985-ci ildə gənc bəstəkar S.İbrahimovanın "Nənəmin nağılları" adlı uşaq operası ilk dəfə Səmərqənd Opera və Balet Teatrında tamaşaya qoyulmuşdur. 70-ci illərin birinci yarısında Azərbaycanda Özbəkistan teatr günləri maraqla qarşılanmışdır.

XX əsrin 60-cı illərinin əvvəllərində Azərbaycan kino işçiləri Daşkənddə yaradıcılıq ezamiyyətində olmuşdular. 1963-cü ildə Daşkənddə "Koroğlu" filminin yaradıcı kollektivi ilə tamaşaçıların görüşü keçirilmişdir. 1968-ci ildə Daşkənddə keçirilən Asiya və Afrika ölkələrinin I beynəlxalq kinofestivalına göndərilmək üçün "Ulduzlar sönmür", "Salam, Azərbaycan" və s. filmlərin milli variantlarının surəti hazırlanmışdı. Müəyyənləşdirilmiş nümayəndə heyətinin arasında A.İsgəndərov, rejissor Ə.İbrahimov və b. var idi.

1973-cü ildə "Özbəkfilm" studiyasının çəkiliş qrupu ikiseriyalı "Əbu Reyhan Biruni" filminin bir çox kadrlarını, səhnələrini Bakıda Şirvanşahlar sarayı və Qız qalasında çəkmişlər.

Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri ərəfəsində respublikamızda istehsal olunmuş "Nəsimi", "Qayınana", "Qərib cinlər diyarında", "Mezozoy əhvalatı", "Sönmüş ocaqların işığı" və s. filmlərimiz bu respublikanın kinoteatrlarında, televiziya verilişlərində göstərilmişdi.

Dekada zamanı Azərbaycan filmlərinin festivalına 600 mindən çox tamaşaçı baxmışdı. Özbəkistanda keçirilən Azərbaycan SSR ədəbiyyatı və incəsənəti günlərindən yadigar olaraq C.Cabbarlı adına "Azərbaycanfilm" studiyası "Dostluq görüşləri" adlı tammetrajlı sənədli film çəkmişdi.

1966-cı ildə Daşkənddə—Özbəkistan SSR-də zəlzələ olması ilə əlaqədar xüsusi fond təşkil edilmişdir. Bu fonda müttəfiq respublikaların teatr tamaşaları və konsertlərindən yığılan müəyyən məbləğdə pul keçirilirdi. O dövrdə Azərbaycandan Özbəkistan Dövlət Bankının 170066 №li hesab fonduna pul köçürmək üçün ayrıca teatr tamaşaları göstərilir və konsertlər verilirdi. ■

*Yeni nəşrlər*

# "Azərbaycan folkloru"

Folklor milli-mənəvi dəyərlərin, etik-estetik və tarixi-fəlsəfi baxışların vəhdətindən yaranmış qaynaqlardan biri kimi zəngin və çoxşaxəlidir.

Azərbaycan şifahi xalq ədəbiyyatı xalqın özü qədər qədim, təbiəti kimi zəngin mənəvi sərvətdir, sənətidir. Bu bədii sənət nümunələrini öyrənən folklorşünaslıq elmimizin təxminən bir əsrlik tarixi var. Artıq Azərbaycan folklorşünaslıq məktəbi yaranmış, zəngin şifahi ədəbiyyatımızın, demək olar ki, bütün janrları toplanıb nəşr edilmiş, lirik, epik və dramatik növlərin poetikası ilə bağlı ciddi tədqiqatlar aparılmış, ali məktəblər üçün sanballı dərsliklər, dərs vəsaitləri çapdan buraxılmışdır. Bu istiqamətdə araşdırmalar müstəqillik dövründə yeni yöndə davam etdirilməkdədir.

Pedaqoji elmlər namizədi Şamxəlil Məmmədovun çoxillik elmi-pedaqoji fəaliyyətinin nəticəsi olaraq hazırladığı "Azərbaycan folkloru" (elmi redaktoru filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Azad Nəbiyev, rəyçilər ADPU-nun professoru, filologiya elmləri doktoru, əməkdar elm xadimi Paşa Əfəndiyev, SDU-nun kafedra müdirləri, dosentlər Avtandil Ağbaba, Yusif Aslanovdur) adlı 326 səhifəlik kitab bu tədqiqat əsərlərinin nəticələrinə əsaslanmaqla öz orijinallığı ilə fərqlənən, elmi nəticələri ilə maraq doğuran bir dərs vəsaitidir.

Müəllifin çoxillik elmi-pedaqoji fəaliyyətinin nəticəsi əsasında yaranan vəsait elmi-publisistik məqalələr toplusudur. Ş.Məmmədov aşıqlarımız barədə fikirlərini, elmi qənaətlərini "Azərbaycan aşıqları" başlığı altında ümumiləşdirib, Aşıq Qurbani, Abbas Tufarqanlı, Aşıq Pəri ilə bağlı maraqlı ədəbi faktları təhlil edib. Ustad Aşıq Ələsgər yaradıcılığının təhlilinə müəllifin geniş yer verməsi, maraqlı faktlara əsaslanmaqla tədqiqat aparması, aşığın bədii obrazının yazılı ədəbiyyatda əksi, İslam Səfərlinin "Ələsgər", Zəlimxan Yaqubun "Göyçə dərdi" poemalarının araşdırılması dəyərli örnəkdir. Aşıq Valeh, Aşıq Hüseyn Şəmkirli, Molla Cümə, Abdulla Padarlı, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Mirzə Bayramov, Aşıq Nəcəf, Aşıq Əsəd, Mikayıl Azaflı, Aşıq Hüseyn Cavan, Dədə Şəmşir, Aşıq Əkbər, Aşıq Kamandar haqqında faktlar da vəsaitin dəyərini artırmışdır.

Vəsaitin "Folklorun poetikası" adlanan ikinci hissəsində dastanlarımızda Xızır İlyas obrazı, dərviş obrazı, Azərbaycan xalq dastanlarında buta məsələləri araşdırılıb. Fikirlərin orijinallığı, tədqiqatçı səriştəsi bu hissədə də duyulur, elmi nəticələr maraq doğurur. Aforistik janrlar: atalar sözləri və məsəllər, vücudnamələr haqqında verilən məlumatlar da maraqlıdır.

Müəllif indiyə qədər epik janr kimi öyrənilən atalar sözləri və məsəlləri, alqış və qarğışları, and və nəsihətləri, tapmacaları aforistik janrlar adı altında ümumiləşdirməyi təklif edir. "Aforizm" yunan sözü olub–"bitmiş fikir, yığcam və dərin məzmunlu ifadə" mənalarını bildirir.

Kitabda əksini tapmış maraqlı faktlardan biri vücudnamələrlə bağlıdır. Aşıq yaradıcılığında vücudnamələri təhlilə gətirən Ş.Məmmədov mövcud ədəbi-nəzəri fikirləri nəzərdən keçirmişdir. Məqalədə ilk dəfə olaraq N.Gəncəvi irsinə üz tutan müəllif maraqlı bir faktı aşkara çıxarıb ki, "Xosrov və Şirin" poemasında yazılı ədəbiyyatımızda hələlik bəlli olan yeganə vücudnamə qələmə alınmışdır.

Folklorşünaslıqda tədqiqata cəlb olunan problemlərdən biri də totemlərin tədqiqi ilə bağlıdır. Müəllif bu məsələnin köklərinin daha geniş əksini nağıllarda axtarır və belə bir nəticəyə gəlir ki, Azərbaycan nağıllarında totemə olan inam Nuh peyğəmbərin adı ilə bağlıdır. Müəllif fikirlərini "Zəmanənin hökmü", "İlanla kişi", "Göyçək Fatma", "Əhməd Mirzə", "İlyasın nağılı" və s. əsasında izah edir, totemin mahiyyətini açıqlayır. Təmsillərdə də totem probleminin araşdırılması vəsaitin dəyərini artırır.

Vəsaitdə maraq doğuran mövzulardan biri də "Qaçaq Nəbi" dastanıdır. Bu haqda verilən faktlar da tələbələr üçün maraqlıdır, yenidir, dastanın poetik xüsusiyyətlərini öyrənməkdə gərəkli istinad mənbəyidir.

Mövcud tədris proqramlarında folklorla yazılı ədəbiyyatın əlaqəsi məsələsi əksini tapmışdır. Ş.Məmmədov bu problemlə bağlı bir neçə sənətkarın irsinə üz tutmuş, fakt və detallar əsasında informasiya tutumu ilə diqqəti çəkən, oxunaqlı materiallar hazırlamışdır.

"Azərbaycan folkloru və yazılı ədəbiyyat" başlığı altında "Kitabi-Dədə Qorqud" və yazılı ədəbiyyat", "Nizami Gəncəvi irsi və xalq yaradıcılığı", "Dastanlaşan əbədi irs", "Sabir və folklor", "Cəfər Cabbarlı və Azərbaycan folkloru", "Cəlil Məmmədquluzadə və folklor", "Yazılı ədəbiyyat nümunələrinin folklorlaşması məsələləri" kimi vacib məsələlər araşdırılıb tədqiq edilmişdir.

Müəllif yazır: Folklor poetikası ilə zəngin olan yazılı ədəbiyyat nümunəsi xalqın bədii mədəniyyət fonunda aktiv yer tutur, mövzu və ideya, bədii-fəlsəfi məzmun baxımından aktuallığı və bəşəri-milliliyi ilə kütləviləşir, daha intensiv yayılır.

Yazılı ədəbiyyat nümunəsinin formalaşmasının forma və vasitələri çoxdur: əsərin kitab şəklində nəşri; qəzet və jurnalda çapı; radioda səsləndirmə (aşıq verilişləri, radio tamaşaları, poeziya dəqiqələri, "Klassik irsimizdən" silsiləsindən verilişlər, "Poeziya buketi, nəğmə çələngi" verilişləri); televiziya (ədəbi dram verilişləri, bədii filmlər; məişət üslubunda dövri işləmələr və s.).

Dövri mətbuatda, radio verilişlərində folklorumuzun bu və ya digər məsələləri ilə bağlı orijinal, elmi cəhətdən dəyərli qələm məhsulları və çıxışlarla oxucu auditoriyası qazanmış pedaqoji elmlər namizədi Ş.H.Məmmədovun "Azərbaycan folkloru" adlı dərs vəsaiti bakalavr, magistrant və aspirantlar, geniş oxucu kütləsi üçün faydalı və dəyərli ədəbiyyatdır.

**Rafiq YUSİFOĞLU,**
**filologiya elmləri doktoru, professor.**
**Elxan MƏMMƏDLİ,**
**filologiya elmləri namizədi.**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## HİNDİSTAN PAKİSTANLA DANIŞIQLARI DAYANDIRIB



Hindistan prezidenti Manmoxan Sinqh bildirib ki, onun ölkəsi Mumbayda partlayış törətməkdə şübhəli sayılan pakistanlılar məhkəməyə cəlb olunmayınca, İslamabadla sülh danışıqlarını bərpa etməyəcək.

Pakistanın baş naziri Yusuf Rza Gilani bloklara qoşulmamaq hərəkatı başçılarının görüşü keçirildiyi Misirdə özünün hindistanlı həmkarı ilə görüşüb.

İki dövlət liderinin birgə bəyanatında deyilir ki, tərəflər terrorizmə qarşı mübarizə üçün bütün imkanlardan istifadə edəcək.

O cümlədən liderlər Mumbayda ötənilki hücumların təhqiqində əməkdaşlıq etmək barədə razılığa gəliblər.

Bəyanatda deyilir ki, lakin belə əməkdaşlıq Hindistan və Pakistan arasında sülhün bərqərarına dair danışıqlar keçirmək haqqında məsələlərlə əlaqədar olmamalıdır.

İki ölkə arasında münasibətlər 2008-ci ilin noyabrında Mumbayda hücumlardan sonra kəskin şəkildə pisləşmişdi. O zaman 160 nəfər hücumların qurbanına çevrilmiş, yuzlərcə adam müxtəlif dərəcəli xəsarət almışdı.

Pakistan Hindistanın bütün ittihamlarını inkar edirdi. Lakin sonralar etiraf etdi ki, hücumlar qismən Pakistan ərazisində hazırlanmışdı.

Pakistanın hüquq-mühafizə orqanlarının bəyanatına uyğun olaraq, bu hücumlarda iştirakda şübhəli sayılan beş yaraqlının işi üzrə məhkəmə gələn həftə işə başlayacaq.

İki ölkə liderinin bəyanatında xüsusilə qeyd edilir ki, terrorizm ilə birgə mübarizə mübahisəli Kəşmir ərazisi haqqında danışıqlar prosesi ilə əlaqələndirilməməlidir.

## TEHRANDA MÜXALİFƏTİN KORTƏBİİ NÜMAYİŞİ



Bir neçə min nümayişçi Tehran küçələrində kortəbii nümayiş keçirib. RİA "Novosti" agentliyi "Reuters"ə istinadən xəbər verib ki, onlar iyunun 12-də prezident seçkilərində uduzan Mir Hüseyn Musəvini dəstəkləyən çıxışlar ediblər.

Kortəbii aksiya nüfuzlu siyasətçi və ölkənin keçmiş prezidenti ayatolla Əli Əkbər Haşəmi Rəfsəncaninin moizəsindən sonra keçirilib. O, Tehran Universitetində çıxış edib.

On minlərlə müxalifət tərəfdarı İran paytaxtında cümə ibadətinə toplaşmışdı.

Haşəmi Rəfsəncaninin moizəsi zamanı universitetin yanına toplaşmış Musəvi tərəfdarları qrupunu polis dəyənəklərin və gözyaşardıcı qazın köməyi ilə dağıdıb. Şahidlərin dediyinə görə, 15 adam həbs olunub.

Polislər adamları universitetə buraxmayıblar. Bəzi küçələrdə hərəkət dayandırılıb. "İnterfaks" Qərbin kütləvi informasiya vasitələrinə istinadən xəbər verib ki, şəhərin mərkəzində bir müddət mobil əlaqələr kəsilib.

Haşəmi Rəfsəncani dörd il qabaq prezident seçkilərində uduzmuşdu. 2009-cu ildə olduğu kimi, 2005-ci ildə də Mahmud Əhmədinejad qələbə çalmışdı. Haşəmi Rəfsəncani bu ilin seçkiqabağı kampaniyası zamanı Musəvini fəal dəstəkləmişdi.

Ayatolla özünün çıxışında qeyd edib ki, İranın bir çox vətəndaşları 12 iyun seçkilərinin rəsmi nəticələrinə şübhə ilə baxırlar. O, hökuməti adamların inamını bərpa etməyə çağırıb. Rəfsəncani həmçinin seçkilərdən sonra iğtişaşlar zamanı həbs olunanların azadlığa buraxılmasını tələb edib.

Xatırladaq ki, iğtişaşlar nəticəsində 27 nəfər həlak olub, minlərlə adam həbs edilib.

## ABŞ PAKİSTANA RAKET ZƏRBƏSİ ENDİRİB



Amerikanın pilotsuz təyyarələrinin raket zərbəsi nəticəsində Pakistanın şimal-qərbində azı beş adam dünyasını dəyişib.

Alınan məlumatlara görə, zərbə Şimali Vəziristanın Hariva yaşayış məntəqəsinə endirilib. Şimali Vəziristan Əfqanıstanla sərhəddə Tayfa zonasına daxildir. Hesab olunur ki, əvvəllər "Əl-Qaidə" və "Taliban" qruplaşması sıralarında xidmət edən islamçı yaraqlıların çoxu hazırda burada gizlənir.

Ötən ilin avqust ayından ABŞ müxtəlif hədəflərə onlarca zərbə endirib. Amerikanın hərbi aviasiyası Pakistan ərazisində "Taliban" hərəkatının yaraqlılarını və "Əl-Qaidə" beynəlxalq terrorçu təşkilatı üzvlərini məhv etməyə cəhd göstərir.

Belə ki, bir neçə gün qabaq Amerikanın pilotsuz təyyarəsi tərəfindən Pakistanın Əfqanıstanla sərhədində "Taliban" bazasında beş yaraqlı öldürülüb.

Yaraqlıların kommunikasiya mərkəzi məhv edilib. Ötən cümə günü Çarmanq dərəsində taliblər hərbi avtomobil dəstəsinə hücum ediblər. Atışma nəticəsində iki hərbçi və dörd yaraqlı həlak olub. Bundan sonra, qoşun dərəyə raket-bomba zərbəsi endirib və azı 10 "Taliban" yaraqlısı öldürülüb. Pakistan dəfələrlə öz ərazisinin raket atəşinə tutulmasına görə ABŞ-a etirazını bildirib. RİA "Novosti" xəbər verib ki, raket zərbələri zamanı təkcə yaraqlılar deyil, dinc sakinlər də həlak olur.

## SOMALİ YARAQLILARI GİROVLARI DƏYİŞMƏK İSTƏYİRLƏR



Somalidə iyulun 14-də oğurlanmış iki Fransız vətəndaşı "Əş-Şəbab" ekstremist təşkilatının əsirliyindədir. Frans-press agentliyi Somalinin sosial məsələlər üzrə naziri Məhəmməd Əli İbrahimə istinadən xəbər verib ki, onlar Fransa həbsxanasında saxlanılan dəniz quldurlarının buraxılmasını tələb edə bilərlər.

İyulun 14-də bir qrup silahlı adam Somalinin paytaxtı Moqadişoda "Sahafi Hotel" mehmanxanasına soxularaq silah gücünə iki Fransa vətəndaşını oğurlayaraq naməlum istiqamətdə yola düşmüşdür.

Frans-press agentliyi Somali hökumətinin mənbəyinə istinadən xəbər verib ki, oğurlananlar ölkənin müdafiə nazirliyi tərəfindən dəvət olunmuşdular.

Məlum olub ki, fransızlar "Hizb əl-İslam" radikal təşkilatı tərəfindən oğurlanıb, sonra isə girovlardan biri "Əş-Şəbab" təşkilatına verilib.

Lakin Məhəmməd Əli İbrahim Fransanın "France-24" radiostansiyasına müsahibəsində xəbər verib ki, hər iki girov "Əş-Şəbab"ın əlindədir. "Əş-Şəbab" silah gücünə ikinci girovu da "Hizb əl-İslam"dan alıb.

Nazirin fikrincə, "Əş-Şəbab"la danışıqlar aparmaq çətin olacaq.

O qeyd edib ki, tələb aydındır. Girov götürməyin əsas səbəbi ondadır ki, Fransa həbsxanasında olan dəniz quldurlarının qohumlarının çoxu "Əş-Şəbab" təşkilatının üzvləridir.

Hazırda Fransa həbsxanasında 15-ə yaxın Somali dəniz quldurı saxlanılır. Onlar 2008-ci ildə girovların azad edilməsi əməliyyatı zamanı saxlanılmışlar.

## CAKARTADA TERROR AKTLARI



Cakartanın iki hotelində baş verən partlayış nəticəsində ölənlər və yaralananlar arasında səkkiz dövlətin—Yeni Zellandiya, ABŞ, Avstraliya, Kanada, Hindistan, Hollandiya, Norveç və Cənubi Koreyanın vətəndaşları vardır. Bu barədə İndoneziyanın paytaxtında jurnalistlərə polis nümayəndələri məlumat veriblər.

Son məlumatlara görə, 9 adam partlayışların qurbanı olub. Daha 50 nəfər yaralanıb. Təhlükəsizlik üzrə parlament komitəsinin sədri Teo Sambuanqın sözlərinə görə, "Ritz-Carlton" və "Marriott" hotellərində partlayışı kamikadzelər həyata keçiriblər.

Teo Sambuanqa istinadən "Reuters" agentliyi xəbər verib ki, hadisə yerində səkkiz adam, o cümlədən kamikadzenin özü həlak olub.

Şahidlərin məlumatına görə, birinci güclü partlayış səhər saat 8 radələrində "Marriott" hotelində baş verib. Təxminən beş dəqiqə sonra bomba "Ritz Carlton"da işə salınıb.

Bir neçə saatdan sonra şəhərin şimal hissəsində avtomobil partlayıb. Nəticədə iki nəfər həlak olub. Yerli polis nümayəndəsinin sözlərinə görə, partlayış terror aktının nəticəsi deyildir. Buna səbəb maşının akkumilyatorunda nasazlıq olub.

Hazırda polislər hotellərdə qoyula biləcək digər partladıcı qurğuları axtarırlar. Hotellərin ətrafında yüzlərcə adam toplanıb.

Hələlik partlayışa görə məsuliyyəti heç kəs üzərinə götürməyib. Lakin polis ekspertlərinin fikrincə, bu terror aksiyaları "Cemaa islamiyyə" təşkilatı tərəfindən törədilib.

## FƏLƏSTİNLİ UKRAYNA ƏRAZİSİNƏ BURAXILIB



İnsident Kiyevin "Borispol" aeroportunda baş verib. Yarım ilə yaxın 29 yaşlı fələstinli aeroportda qalıb. Cümə günü Ukraynanın sərhəd xidməti, nəhayət, onu ölkə ərazisinə buraxıb.

Gənc fələstinli Hicazi Məhəmmədin əziyyəti qaçqınların işləri üzrə BMT Ali Komissarlığı İdarəsinin regional nümayəndəsi Qəzza ərazisində qaçqın statusunu təsdiq etdikdən sonra qurtarıb. Ukrayna tərəfi də fələstinlinin vəziyyətini nəzərə alıb.

"İnterfaks" sərhəd idarəsinin mətbuat xidmətinə istinadən xəbər verib ki, Krivoy Roq milisinin qadağasına əsasən Hicazi Məhəmməd Ukrayna ərazisinə buraxılmamışdı.

Gənc fələstinli Ukraynaya Krivoy Roqda təhsil almaq üçün 2000-ci ildə gəlmişdi. Lakin 4 il sonra o, müntəzəm pozuntulara görə universitetdən qovulmuşdu. Qanunvericiliyə uyğun olaraq, o, Ukrayna ərazisini tərk etməli idi. Lakin Hicazi Məhəmməd bunu etməyib.

Məhəmməd Ukraynada işbazlıqla məşğul olmuş, dəfələrlə inzibati cəza almışdı. Artıq 2009-cu il yanvarın 16-da Krivoy Roq milisi onu Ukraynadan çıxarmaq haqqında qərar qəbul edib. Yanvarın 17-də fələstinli Qahirəyə yola salınıb. Lakin Qəzza bölgəsində gedən hərbi əməliyyata görə onu vətəninə buraxmayıblar. Məhəmməd yenidən Ukraynaya qaytarılıb. ■